**UOT 94 (479.24)**
https://doi.org/10.59849/2218-4783.2026.2.26

# İRANIN SİYASİ İDEOLOGİYASINDA İSLAM VƏ MƏZHƏBÇİLİK: AZƏRBAYCANLA MÜNASİBƏTLƏRDƏ STRATEJİ ZİDDİYYƏTLƏR

# ISLAM AND SECTARIANISM IN IRAN'S POLITICAL IDEOLOGY: STRATEGIC CONTRADICTIONS IN RELATIONS WITH AZERBAIJAN

**Emin ŞIXƏLİYEV***

**XÜLASƏ**

Bu məqalədə İran İslam Respublikasının siyasi ideologiyasında İslam və məzhəb amilinin rolu, eləcə də bu amillərin ölkənin xarici siyasətində, xüsusilə Yaxın Şərq və Cənubi Qafqaz regionlarında davranış modelinə təsiri təhlil olunur. Araşdırmada göstərilir ki, məzhəbçilik Tehran tərəfindən daha çox geosiyasi maraqların təmin olunmasına xidmət edən başlıca vasitə kimi istifadə edilir. Məqalədə məzhəbçiliyin yalnız müasir siyasi alət olmadığı, eyni zamanda dərin tarixi köklərə malik olduğu əsaslandırılır. Bu kontekstdə məzhəbsəl qarşıdurmaların və ideoloji parçalanmaların genezisi Sasani imperiyasının süqutu dövrünə qədər izlənilir və ərəb-fars münasibətlərində formalaşmış tarixi gərginliyin müasir məzhəbi dinamikanın formalaşmasına təsiri qeyd olunur. Bu baxımdan, məzhəbçiliyin pərdəarxası səbəbləri yalnız dini deyil, həm də tarixi-siyasi faktorlarla izah edilir. Eyni zamanda, İranın Azərbaycanla münasibətlərində mövcud olan strateji ziddiyyətlər geniş şəkildə araşdırılır və bu ziddiyyətlərin təkcə ideoloji fərqliliklərlə deyil, həm də regional güc balansı, təhlükəsizlik narahatlıqları və geosiyasi maraqların toqquşması ilə şərtləndiyi əsaslandırılır. Xüsusilə İranın Ermənistanla münasibətləri, Azərbaycanın İsraillə əməkdaşlığına münasibəti, eləcə də post-münaqişə dövründə formalaşmış yeni geosiyasi reallıqlara yanaşması bu kontekstdə təhlil edilir. Nəticə etibarilə, məqalə İranın ideoloji diskursu ilə praktiki siyasəti arasında mövcud uyğunsuzluğu üzə çıxarır və Azərbaycan-İran münasibətlərinin gələcək inkişafının daha çox praqmatik yanaşmalardan və qarşılıqlı maraqların uzlaşdırılmasından asılı olduğunu göstərir.

**Açar sözlər:** *İran İslam Respublikası, siyasi ideologiya, din, məzhəbçilik, Yaxın Şərq, İran-Azərbaycan münasibətləri, strateji ziddiyyətlər.*

**ABSTRACT**

This article examines the role of Islam and sectarianism in the political ideology of the Islamic Republic of Iran, as well as their impact on the country's foreign policy behaviour, particularly in the Middle East and in the South Caucasus. The study argues that sectarianism is employed by Tehran primarily as a principal means serving its geopolitical interests. The paper further demonstrates that sectarianism is not merely a contemporary political instrument but is rooted in deep historical processes. In this context, the origins of sectarian divisions and ideological fragmentation are traced back to major historical transformations, particularly the fall of the Sasanian Empire, which played a crucial role in shaping long-term Arab-Persian tensions. Thus, the underlying drivers of sectarianism are explained not only through religious factors but also through historical and political dynamics. In addition, the article analyses the strategic contradictions in Iran-Azerbaijan relations, arguing that these tensions are shaped not only by ideological differences but also by regional power balance, security concerns, and competing geopolitical interests. Particular attention is paid to Iran's relations with Armenia, its stance toward Azerbaijan's cooperation with Israel, and its approach to the new geopolitical realities that emerged in the post-conflict period. In conclusion, the article reveals a significant discrepancy between Iran's ideological discourse and its practical foreign policy, suggesting that the future development of Iran-Azerbaijan relations will largely depend on pragmatic approaches and the reconciliation of mutual interests.

**Keywords:** *Islamic Republic of Iran, political ideology, religion, sectarianism, the Middle East, Iran-Azerbaijan relations, strategic contradictions.*

---

*Tarix elmləri doktoru, dosent, Naxçıvan Dövlət Universiteti, e-mail: eminarif@ndu.edu.az
ORCID:

**GİRİŞ**

İran İslam Respublikası müasir beynəlxalq münasibətlər sistemində ideoloji əsaslara söykənən nadir dövlətlərdən biri kimi çıxış edir. 1979-cu ildə baş vermiş dini inqilab nəticəsində formalaşan siyasi sistem yalnız institusional dəyişikliklərlə məhdudlaşmamış, eyni zamanda dövlətin daxili və xarici siyasət kursunun ideoloji konturlarını da köklü şəkildə yenidən müəyyənləşdirmişdir. Bu ideoloji çərçivədə din, xüsusilə də şiə məzhəbi dövlət idarəçiliyinin və geosiyasi davranışın əsas determinantlarından biri kimi çıxış edir. İranın siyasi ideologiyasının mərkəzində yer alan "vilayət-e fəqih" doktrinası dini-siyasi hakimiyyətin legitimliyini ilahi qaynaqlarla əsaslandırmaqla yanaşı, bu modelin regional miqyasda ixracını da strateji məqsəd kimi müəyyən etmişdir. Bu isə xüsusilə məzhəbi plüralizmin mövcud olduğu bölgələrdə, Yaxın Şərq regionunda, o cümlədən Cənubi Qafqazda mürəkkəb geosiyasi dinamikanın formalaşmasına səbəb olmuşdur. Belə bir kontekstdə İranın məzhəbçilik üzərindən qurduğu təsir mexanizmləri təkcə dini yaxınlıq deyil, həm də siyasi alət kimi çıxış edir. Bu baxımdan İran ilə Yaxın Şərq ölkələri, xüsusilə Azərbaycan Respublikası arasındakı münasibətlər yalnız coğrafi qonşuluq və tarixi-mədəni bağlılıqlar prizmasında deyil, həm də ideoloji ziddiyyətlər kontekstində təhlil olunmalıdır. İranın teokratik-ideoloji yanaşması ilə Yaxın Şərq ölkələrinin sünni məzhəbçiliyi üzərində qurulan ideoloji yanaşmaları, eyni zamanda Azərbaycanın dünyəvi dövlət modeli, milli kimlik üzərində qurulan siyasi identikliyi və çoxvektorlu xarici siyasət strategiyası arasında fundamental fərqlər mövcuddur. Bu fərqlər region dövlətləri arasında əməkdaşlıq imkanlarını məhdudlaşdırmaqla yanaşı, zaman-zaman gizli və açıq ziddiyyətlərin yaranmasına gətirib çıxarmışdır. Məqalədə İranın siyasi ideologiyasında İslam və məzhəbçilik faktorlarının mahiyyəti araşdırılmaqla yanaşı, bu ideoloji elementlərin, xüsusilə də məzhəbçiliyin Yaxın Şərq ölkələri ilə münasibətlərinə qısa da olsa təsirinə toxunulacaq, Azərbaycanla münasibətlərdə necə strateji ziddiyyətlər yaratdığı kompleks şəkildə təhlil ediləcəkdir. Eyni zamanda bu ziddiyyətli regional təhlükəsizlik mühitinə və geosiyasi balansa təsiri də elmi, siyasi əsaslarla dəyərləndiriləcəkdir.

**İDEOLOGİYADAN GEOSİYASƏTƏ: REGİONAL DAVRANIŞ MODELİ VƏ MƏZHƏBÇİLİYİN PƏRDƏARXASI**

Məlum olduğu kimi, İran Yaxın Şərqdə, Cənubi Qafqazda və İslam dünyasında ortaya çıxan problemlərlə əlaqədar olaraq son dövrlərdə sıx-sıx adından söz etdirən, qlobal güclərə meydan oxuyan, qonşuluğundakı bəzi ölkələrə isti və səmimi görünüb, digərlərini terrorla təhdid edən dövlətlərdən biridir. Tarixə nəzər salsaq görərik ki, 1967-ci ildə tarixə ərəb ölkələrinin məğlubiyyəti kimi düşən 6 günlük müharibə Yaxın Şərqdə millətçilik ideyasının tənəzzülü ilə nəticələndi. Elə həmin ərəfələrdə Ruhulla Musəvi Xomeyniylə İranda başlayan dini inqilabi hərəkat ideyası istər-istəməz ərəb dünyasında da yeni tendensiyaların ortaya çıxmasına təkan verdi. İranda şah rejiminin devrilməsi və baş verən çevriliş, daha dəqiq bir ifadəylə, şiə inqilabından sonra Xomeyninin məzhəb ideologiyasını gündəmə gətirməsi İslam dünyasında məzhəbləşmə çatının böyüməsinə səbəb oldu, eyni zamanda dini-siyasi təmayüllərin şiəçiliyə qarşı əks-reaksiya kimi sünni dünyasında da yayılmasına stimul verdi. Əlbəttə ki, Xomeyninin Fransaya sığınması və İrana da məhz oradan qayıtması heç də təsadüfi deyildi. Bu məsələ diqqətlə araşdırılması və təhlil edilməsi vacib olan problemlərdən biridir. Şübhə yoxdur ki, bəzi qlobal güclər regionda öz geosiyasi planlarını reallaşdıra bilmək üçün yeni fürsətlər axtarırdılar. Həmin dövrdə ərəb dünyası İsrailə, ümumiyyətlə, sionizmə qarşı vahid qüvvə kimi ortaya çıxırdı. Rəsmi Təl-Əviv və Qərb dövlətləri üçün ən qorxunc hadisə isə ərəblərin artıq millətçilik ideyalarından sıyrılıb dini şüarlar altında mübarizəsini davam etdirməsi ehtimalı idi. Bu tendensiyanın qarşısını yalnız və yalnız İslam dünyasını içdən parçalamaqla almaq olardı. İslam dünyasını daxildən parçalamaq üçün ən yaxşı vasitə isə məzhəb müharibələri idi. Bu mənada qatı şiə ideologiyasına istinad edən Xomeyninin hakimiyyətə gəlməsi Qərbin və İsrailin də işinə yarayırdı. Bu inqilabın ABŞ, Fransa və onlarla yaxın müttəfiqlik halında olan İsrail tərəfindən hazırlandığı iddia olunsa da, əlbəttə ki, tamamilə subyektiv xarakterlidir, amma düşündürücüdür. Belə hesab oluna bilər ki, Xomeyninin

Fransadan İrana qayıtmasının qarşısının qlobal imperializm tərəfindən alınmaması, prinsip etibarilə, müəyyən beynəlxalq qüvvələrə də sərfəliydi. Onların əsas məqsədi isə ərəb birliyinin və İslami vəhdətin qarşısını almaq idi.

Digər bir iddiaya görə isə, 1978-ci il tarixli Kemp Devid anlaşmalarının imzalanmasından sonra bu müqaviləyə əks-reaksiya olaraq ərəb ölkələri arasında həmrəylik atmosferinin artması, İsrailə qarşı qıcıqlanmaların daha da geniş vüsət alması Yaxın Şərq regionunda böyük gücləri hərəkətə keçirmiş və planlı şəkildə sünni ərəb dünyasına qarşı şiə fars dövlətinin qurulması planını reallaşdırmışdır. Belə bir vəziyyətdə, sünni ərəb dünyasının diqqəti İsraildən şiə İran dövlətinə yönələcək və yeni bir düşmənlə toqquşma artıq zərurətə çevriləcəkdi. Heç təsadüfi deyildir ki, 1979-cu ilin fevralında İranda Şah rejiminin devrilərək Xomeyni rejiminin səhnəyə çıxması və 1980-ci ilin sentyabr ayında İran-İraq müharibəsinin baş verməsi ərəb dünyasını bölmüş, məzhəb toqquşmaları bundan sonra daha da alovlanmışdır [Armaoğlu, 1991: 749; Şıhaliyev, 2023: 331]. Qeyd etmək lazımdır ki, İran İslam Respublikasının qurulması, eyni zamanda İslam dünyasında da məzhəb qarşıdurmalarını şiddətləndirmişdir. Halbuki Qurani-Kərimdə açıqca buyurulur ki, *"Hamınız birlikdə Allahın ipinə (kitabına, dininə) bərk sarılın. Parçalanıb ayrılmayın"* **(Ali-İmran surəsi, ayə: 103)**.

Məsələ ilə bağlı digər ayələrdə də bariz şəkildə xəbərdarlıq edilir: *"Allaha və onun elçisinə tabe olun, bir-birinizlə didişməyin. Yoxsa zəifləyib gücünüzü itirərsiniz (rüzgarınız kəsilər)"* **(Ənfal surəsi, ayə: 46)**.

Burada İran İslam Respublikasının adı ilə bağlı məsələyə diqqət çəkməyi vacib hesab edirik. Bu respublikada din-dövlət münasibətləri istər elmi, istər siyasi, istərsə də fərdi baxımdan hər kəsi dərindən maraqlandıran ən aktual mövzulardan biridir. Əlbəttə ki, bu kimi məsələlərdə İran yalnız deyil, eyni şəkildə Əfqanıstanda, bəzi ərəb dövlətlərində də din-dövlət münasibətləri daha qatı, daha radikaldır. Məsələ burasındadır ki, əgər din dövlətin əlində siyasi və ideoloji alətə çevrilərsə, o zaman dövlət tanrısallaşdırılar. Eyni zamanda dövlət haqqında söz demək, tənqidi fikirlər bildirmək günah hesab edilər, dövlətin qəbul etdiyi qərarlara səs çıxarılmaz, əks təqdirdə küfrə bərabər sayılar. Səs çıxarıldığı zaman bir növ dövlətin ilahi müqəddəsliyinə xələl gətirilmiş olar. Nəticədə ardıcıl şəkildə edamlar gerçəkləşər, kəllələr kəsilər, insanların əmlakı müsadirə olunar, özünə və yaxınlarına işgəncələr verilər, zülmə məruz qalar, həbsxanalar dolub daşar. Çünki həmin ölkələrdə dövləti tənqid etmək Allahı tənqid etmək kimi eyni səviyyədə dəyərləndirilər. Reallıq bundan ibarətdir ki, İran İslam Respublikasında qəbul edilən qanunlar tamamilə zorbalığı, basqını, təzyiqi özündə ehtiva edir. Halbuki İslamda təməl prinsip budur: *"Dində məcburiyyət (zorakılıq) yoxdur"* **(Bəqərə surəsi, ayə: 256)**.

Dində məcburiyyət olmadığına görə, insanları zorla dinə gətirmənin də heç bir mənası yoxdur. Əks təqdirdə, zora məruz qalan şəxs mömin yox, münafiq olar ki, bu da İslama tamamilə ziddir.

Adını İslam Respublikası qoymaqla İran həqiqi mənada İslam Respublikası olmur. "İslam dövləti" anlayışı deyə bir məfhum ola bilməz və mümkün deyil. Əks təqdirdə, yuxarıda da qeyd olunduğu kimi, din dövlətin əlində siyasi, ideoloji vasitəyə çevrilər – ki, bunun nümunə və nəticələri bütün dünyaya məlumdur. Dövlətin əsas qayəsi və amalı xalqın asayişini mühafizə etmək, ədaləti qorumaq və hüququ təmin etmək olmalıdır. İnsan öz yolunu özü cızır, nəyə inandığını da özü müəyyənləşdirir. Bəzi ayələrdə insanların inkar və imanı seçməkdə azad olduğu, yəni diləyənin iman, diləyənin də inkar edə biləcəyi göstərilir. Çünki Allah tərəfindən insanlara məcburiyyət yox, iradə verilmişdir: *"De ki: Haqq Allahdandır. Diləyən iman etsin, diləyən inkar etsin, ixtiyar sizindir"* **(Kəhf surəsi, ayə: 29).**

Və ya: *"Şübhəsiz ki, biz insana doğru yolu göstərdik, lakin iman edən və ya inkar edən biri olmağı onun öz ixtiyarına buraxdıq"* **(İnsan surəsi, ayə: 3).**

Əgər dövlət dini öz əlində siyasi, ideoloji vasitəyə çevirib, bu yolla xalqı manipulyasiya edirsə, o zaman bu, **"Allah ilə aldatmaq, din adı altında aldatmaq"** metoduna çevrilir. Halbuki Qurani-Kərimdə buyurulur ki, *Allah ilə, Allah adından istifadə edərək aldatmayın!* **(Fatir surəsi, ayə: 5).**

Hətta və hətta İslam dini peyğəmbərlər də daxil, heç kimə insanlar üzərində təzyiq qurmaq və zorakılığa baş vurmaq səlahiyyətini vermir: *"Əgər Rəbbin istəsəydi, yer üzündə olanların hamısı iman gətirərdi. İnsanları iman gətirməyə sənmi məcbur edəcəksən?"* **(Yunis surəsi, ayə: 99).**

Belə bir vəziyyətdə İslam Respublikası olduğu halda, İran hansı əsasla dini dövlətin əsas vasitəsinə çevirib özünün sərt təsir mexanizmlərindən istifadə edir?

Nümunələrin sayını artırmaq mümkündür. Məhz bunun nəticəsidir ki, İranda və bu kimi ölkələrdə nəinki dövlətə və onun məmurlarına, hətta sülh, sevgi və şəfqət dini olan İslama belə nifrət ən üst səviyyədədir. Bu nifrəti yaradan da İran və onun kimi dövlətlərdir. Qeyd etmək lazımdır ki, atdığı addımlarla İran öz qonşuları ilə, xüsusilə də Azərbaycanla münasibətləri korlamaqdadır. Hər nə qədər şiə amilini qabardıb, həm öz daxilində, həm də Azərbaycanda xalqı manipulyasiya etmək istəsə də, faktlar reallığı açıq şəkildə ortaya qoyur. 30 ilə yaxın bir müddətdə "şiə qardaşımız" adlandırdığı Azərbaycanın torpaqlarını işğal altında saxlayan, onun tarixi-dini abidələrini ən alçaldıcı üsullarla təhqir edən, bu mədəniyyət abidələrinə qarşı terror siyasəti yeridən Ermənistanla münasibətlərini ən üst səviyyədə qurdu, məscidlərdə donuz, inək və s. heyvanlar saxlayan ermənilərin hərəkətlərinə göz yumdu. Amma Azərbaycan işğal altındakı torpaqlarını azad edincə, İran özünün əsl simasını göstərdi, Ermənistanla qardaş olduğunu açıq şəkildə bəyan etdi. Sərhədlərin əsla dəyişməz, Zəngəzur dəhlizinin açılmamalı olduğunu özünün qırmızı xətti elan etdi. Sual olunur: ***Azərbaycan torpaqları işğal olunduğu zaman İranın qırmızı xəttin haradaydı? Hanı, bu "İslam Respublikası"nın şiə qardaşlığı şüarları?***

Onsuz da İranın Azərbaycana qarşı aqressiyası var idi. Vaxtilə Azərbaycan torpaqları işğal altında qaldığı müddətdə sərhəddə bir dəfə belə olsun təlim keçməyən İran Azərbaycanın tarixi zəfərindən sonra mütəmadi olaraq təlimlər keçməyə başladı. Bu addım qorxutma strategiyası kimi xarakterizə oluna bilər. 27 yanvar 2023-cü ildə Tehranda Azərbaycan səfirliyinə edilən hücum və törədilən terror aktı da bunun bariz nümunələrindən biridir. 2022-ci ilin avqustun 4-də Londonda Azərbaycan səfirliyinə İslam məzhəbçiliyi ilə pərdələnmiş hücumun arxasında da İran xüsusi xidmətinin əli olduğu qənaətinə gəlmək mümkündür. Acıq olsun deyə Ermənistanla yüksək səviyyədə dialoq qurmasını, tez-tələsik Qafanda konsulluq açmasını, vaxtilə Qarabağdakı ermənilərə humanitar yardım üçün kifayət qədər canfəşanlıq etməsini necə din, məzhəb qardaşlığı adlandırmaq olar? İslamı təhqir edən, müsəlman məscidlərində heyvan saxlayan Ermənistana dəstək verməsinə nə ad vermək olar? İranın şiə qardaşlığı şüarı əslində tamamilə manipulyativ məqsədlərə xidmət edir və arxasında açıq məkrli niyyət dayanır. Həmçinin bu dövlətin davamlı şəkildə qıcıqlandırma metodlarından istifadə edərək Azərbaycanı müxtəlif məsələlərdə ittiham etməsi onun səmimi qonşuluq mövqeyini tamamilə kölgə altında qoyur.

İranın siyasi ideologiyasında məzhəbçiliyin ayrı bir yeri var. Əlbəttə ki, Əhli-Beytə hörmət bütün müsəlmanların borcudur. Lakin İran Əhli-Beyt aşiqliyini, məzhəbçilik məsələsini özünün siyasi, dini, ideoloji alətinə çevirmişdir. Burada tarixə qısa bir ekskurs etmək lazım gəlir. Məlum olduğu kimi, 651-ci ildə xəlifə Ömər dövründə Sasanilərin varlığına son qoyulmuş, Sasani-Pers imperiyası tarix səhnəsindən silinmişdir. Şübhəsiz ki, bu məğlubiyyətin təsirini farslar unutmamış, ərəblərə qarşı kəskin nifrət bəslərmiş, yeni bir fars kimliyi axtarışı içərisində olmuşlar. Həqiqi İslam bir tərəfdə qalmış, ərəb islamına qarşı fars islamı öz üstünlüyünü qurmaq istəmiş, beləliklə, tərəflər arasında uzun illər ciddi rəqabət yaşanmışdır. Əsrlərdir ki, bu qarşıdurma, rəqabət və ziddiyyət davam edir [Kaya, 1998: 258]. Tarixən öz mədəniyyəti, ehtişamı ilə qürrələnən farslar heç vaxt ərəb üstünlüyünü qəbul etmək istəməmişlər. Burada ərəb xilafətinə də ayrıca bir paraqraf açmaq lazım gəlir. Müəyyən dövrlərdə ərəb xilafəti İslamı qılınc gücüylə yaymağa çalışmış və özlərinəməxsus bir nizam yaratmaq istəmişlər. Qeyd etmək lazımdır ki, ərəb xilafətinin istər Əməvilər sülaləsi olsun, istərsə də Abbasilər sülaləsi əsl həqiqətdə İslam dövləti deyil, ərəb xilafətləri olmuşlar. Xüsusilə Əməvilər xilafəti islami prinsipləri bir tərəfə buraxaraq müsəlmanların hüquqlarını pozur, İslamı əsl mahiyyətindən qopararaq zorba dinə çevirir, işğal etdiyi ölkələrə zorla ərəb dili və mədəniyyətini qəbul etdirməyə çalışır, ərəb

olmayan müsəlmanların həyatını çətinləşdirir, radikal millətçi siyasət yeridirdi. Əməvilərdən fərqli olaraq, Abbasilər xilafəti nisbətən humanist və liberal bir görüntü yaratmaq istəsə də, nəticədə hər iki xilafət öz geosiyasi nüfuzunu və işğal siyasətini İslam bayrağı və din adı altında reallaşdırmağa çalışmışlar [Şıxəliyev, 2020: 28].

Sasanilər dövründə farsların ərəblərə olan münasibəti tamamilə fərqli idi. Özlərini daha mədəni, aristokrat hesab edən farslar ərəblərə yuxarıdan aşağı baxmış, onları kölə olaraq xarakterizə etmişlər. Dövr elə gətirdi ki, Sasani-Pers imperiyasının yıxılmasından sonra ərəblər onların bir növ əfəndisinə çevrildilər və farslara məvali *(ərəb olmayan müsəlman, ikinci dərəcəli insan – E.Ş.)* olaraq davranmağa başladılar. Beləliklə, ərəb islamına qarşı fars islamı özünü göstərdi və güclənməyə başladı.

Qeyd etmək lazımdır ki, ərəblərə qarşı nifrətin əsas səbəbi Sasani-Pers imperiyasının tarixdən silinməsidir. Sasani imperiyasını tarixdən silən isə Ömərdir. Bu baxımdan Ömərə lənətlər yağdırılır. Fars islamına görə, Ömər sasaniliyin düşməni, Əli isə dostudur. Əbubəkirin sevilməməsinin səbəbi isə Fədək hadisəsi ilə bağlıdır. İddiaya görə, Hz. Məhəmməd tərəfindən qızı Fatiməyə verilən “Fədək” adlı bağ Əbubəkir tərəfindən qəsb edilmişdir. Belə bir vəziyyətdə fars islamına görə, Əbubəkir Fədəki qəsb etmiş Ömər isə Sasani imperiyasını yıxmışdır. Hz. Əliyə olan sevgi isə tamamilə başqadır. İddiaya görə, Hz. Əlinin də haqqı Ömər tərəfindən yeyilmiş, o, iqtidardan uzaqlaşdırılmışdır. Yəni Ömər həm Əliyə zülm etmişdir, həm də Sasanilərə. Belə bir vəziyyətdə haqqı əlindən alınan Əli şiəliyi ilə Sasanilik birləşmiş olur. Bu birləşmə duyğusu 12-ci imam Mehdinin varlığında davam edir. İddiaya görə, guya Mehdi zühur edəcəyi zaman həm ulu babası Əlinin, həm də Sasanilərin intiqamını Ömərdən və Ömər tərəfdarlarından alacaqdır. Öməri dirildib mühakimə edəcək, onu yandıracaq, Ömər tərəfdarlarını, yəni sünniləri də qılıncdan keçirəcəkdir. Burada bir məqama xüsusilə diqqət çəkmək lazım gəlir. Əgər Sasaniləri tarix səhnəsindən silən Ömər deyil, Əli olsaydı, o zaman farslarda formalaşan tarixi nifrət mütləq şəkildə Əliyə yönələcəkdi. Şübhəsiz ki, fars islamında Hz. Əliyə və onun soyundan gələn imamlara olan yaxınlığın özünəməxsus səbəbləri var. Pərdəarxasında sevgi, yaxınlıq deyil, tamamilə siyasi motivli səbəblər dayanır. Əvvəla, Hz. Əli ilə Sasani hökmdarı III Yezdəgird qudadırlar. Hz. Əlinin oğlu Hz. Hüseyn III Yezdəgirdin qızı Şəhribanunun həyat yoldaşıdır. Bu evlilikdən yaranan nəsil fars islamında olduqca müqəddəs sayılır. Həmin soyun davamçıları olan imamların ulu ataları Hz. Əli və Sasani hökmdarı III Yezdəgirddir. Farslar isə bir növ həmin soyun – imamların dayıları sayılırlar. Bu səbəbdən farslar 12 imamı müdafiə edir və müqəddəsləşdirirlər [Bardakçı, 1970: 19; Kevserani, 1992: 258; Özdağ, 1998: 21; Şıhaliyev, 2004: 210-214; Türk Ansiklopedisi, 1980: 171].

Burada diqqəti cəlb edən əsas məsələlərdən biri də imamlığın Həsən soyundan deyil, Hüseyn soyundan davam etməsidir. Yuxarıda da qeyd olunduğu kimi, III Yezdəgirdin qızı Şəhribanu Hz. Hüseynin həyat yoldaşıdır və imamlıq bu izdivacdan davam edir. Beləliklə, imamlıq Sasani və peyğəmbər soyu arasında paylaşdırılır. Digər bir ifadəylə, imamlıq bir tərəfdən peyğəmbər soyuna, digər tərəfdən də Sasani-Pers soyuna dayanır.

Diqqəti cəlb edən digər məqamlardan biri də Əli ilə ondan əvvəlki xəlifələrin düşmən olduqlarının sübuta yetirilməsi üçün faktların gizlədilməsi və Kərbəla hadisəsinin təhrif edilməsidir. Hz. Əlinin və Hz. Həsənin qətlə yetirilən övladlarının adları xalqdan gizlədilmişdir. İnsanların əksəriyyəti onların kim olduqlarını bilmir. Kərbəla hadisəsində Hz. Əlinin Hüseyn və Abbasdan başqa şəhid edilən övladlarının adları, eyni zamanda Hz. Həsənin həmin qətliamda şəhid edilmiş övladlarının adları gizlədilir. Heç təsadüfi deyildir ki, həmin qətliamda Hz. Əli və Hz. Həsənin Əbubəkir, Osman və Ömər adlı şəhid övladları da var idi. Bu necə düşmənçilikdir ki, Hz. Əli ilə Hz. Həsən öz övladlarının adlarını Əbubəkir, Ömər və Osman qoyublar? Hansı insan öz düşməninin adını öz övladına ad olaraq seçər?

Ümumiyyətlə, bəzi obyektiv və subyektiv səbəblərdən bu kimi məsələlərin üzərində detaylı şəkildə durmaq niyyətində deyilik. Nəticə etibarilə, şiəliyi özünün siyasi, ideoloji vasitəsinə çevirən fars məzhəbçiliyini belə xarakterizə etmək mümkündür: Şiəlik də sünnilik kimi şəriətçidir, Hz. Əlini

və onun soyunu imam olaraq qəbul edir, milli dinə və milli mədəniyyətə sahibdir. Fars məzhəbçiliyi İslam dünyasında ərəblərdən ayrılmaq üçün formalaşdırılmış bir ideologiyadır. Həmin məzhəbçiliyin arxasında isə güclü və qatı şovinist fars millətçiliyi dayanır. Şiəlik pərdəsi altında fars olmayanların, xüsusilə Azərbaycan türklərinin öz soy-kökündən qoparılması, ümmətçilik anlayışı ilə assimilyasiyaya məruz qoyulması hədəflənmişdir. Son olaraq onu da qeyd etməyi borc bilirik ki, bu məqalədə əsas məqsədimiz bütün fars millətini ittiham etmək və fərqli əqidədə olan insanları eyni qəlib içərisində dəyərləndirmək deyil. Əlbəttə ki, fars milləti içərisində aydın təfəkkürlü, geniş dünyagörüşünə malik ziyalı, alim, maarifçi, təqvalı və dürüst insanlar kifayət qədərdir. Əsas məqsədimiz məzhəbçiliyi ön plana çıxaran, ondan siyasi, ideoloji, təsir və təzyiq vasitəsi kimi istifadə edən rejimin, siyasilərin və ideoloqların iç üzünü ortaya qoymaqdır.

İran uzun illərdir ki, öz ənənəvi siyasətinə sadiq qalaraq istər güneyli soydaşlarımızın yaşadığı ərazilərdə, istərsə də Azərbaycan Respublikasında məzhəb amilini qabardaraq xalqı manipulyasiya etməkdədir. Həmin ideologiya da bilavasitə İranın sırf İslam qardaşlığı sevgisindən qaynaqlanmayıb, tamamilə geosiyasi maraqlarına xidmət edir. Azərbaycan geostrateji və geosiyasi baxımdan elə bir coğrafi ərazidə yerləşir ki, əhatələndiyi dövlətlərin heç də hamısı onunla isti münasibətlər qurmaqda səmimi deyil. Bu da geosiyasi maraqların toqquşmasından və anti-türk zehniyyətdən qaynaqlanır. Bunu nəzərə alaraq Azərbaycan şahmat taxtasında həmlələrə qarşı hazır olmalı, öz strategiyasını müəyyənləşdirməlidir və müəyyənləşdirir. İdeologiyasından, dinindən, məzhəbindən, düşüncəsindən asılı olmayaraq, hər bir azərbaycanlının ən böyük amalı və müqəddəs vəzifəsi daim Azərbaycanın maraqlarının qorumaq, onu qəlbdən sevmək olmalıdır. Hər bir azərbaycanlının sevgisi, ideologiyası, zehniyyəti, dindarlığı hansısa kənar dövlətin yumşaq gücü altında assimilyasiyaya məruz qalmamalıdır. Amma təəssüf ki, Azərbaycanda dindarların əksəriyyəti, Əhli-Beyti və imamları sevənlər, səhabələrə rəğbət bəsləyənlər ya İrançı olur, ya da ərəbpərəst. Liberal və demokratların əksəriyyəti isə Avropapərəst və ya Qərbpərəst olur. Halbuki bu vətəndə yaşayanların sevgi və ideologiyası sırf Azərbaycan üçün olmalıdır. Məhəmməd peyğəmbərin də buyurduğu kimi, "vətəni sevmək imandandır".

**İRANIN AZƏRBAYCANLA MÜNASİBƏTLƏRİNDƏ STRATEJİ ZİDDİYYƏTLƏR VƏ GEOSİYASİ MARAQLARIN TOQQUŞMASI**

İslam sivilizasiyasının daşıyıcılarından biri olan Azərbaycan xalqının da müsəlman, onunla tarixi və mədəni yaxınlıqları olmasına baxmayaraq, İran SSRİ-nin dağılmasından sonra regionda ciddi nüfuz qazanma və özünə strateji müttəfiq axtarışı içərisində Ermənistana böyük üstünlük vermiş, bu dövlətin Azərbaycana qarşı hərbi təcavüzünü bəzən qapalı, bəzən də açıq şəkildə dəstəkləmişdir [Qasımov, 1997, s. 74-75]. Halbuki müstəqilliyin ilk illərindən fərqli olaraq, Azərbaycan İrana qarşı radikal mövqedən yox, mövcud geosiyasi vəziyyəti dəyərləndirərək, qonşuluq siyasəti mövqeyindən çıxış etsə də və eyni zamanda ikitərəfli iqtisadi-siyasi, mədəni əlaqələr qursa da, İran Azərbaycanla deyil, Ermənistanla münasibətlərini genişləndirmişdir. İran tərəfindən dəyərləndirildiyində, Ermənistan Qərbi və Şimali İranı, yəni Cənubi Azərbaycanı türklərin təsirindən qoruyan bir qalxan vəzifəsini icra edir. Digər tərəfdən, ABŞ və Avropadakı erməni lobbisinin siyasi sahədəki nüfuzundan yararlanmaq da İranın maraqlarına cavab verir. Rəsmi İrəvan isə İranla əlaqələri baxımından onu Ermənistana iqtisadi baxımdan nəfəs verdirəcək bir dövlət olaraq görürdü [Gül, Ekici, 2002: 39].

İranla Ermənistan arasındakı münasibətləri gücləndirən digər faktorlar isə geosiyasi baxımdan regionda Türkiyənin artan təsiri, Azərbaycan və Gürcüstanın Türkiyəyə yaxın münasibətləri, Türkiyə ilə Ermənistan arasındakı anlaşmazlıqlar idi [Ekinci, 2009: 245].

Azərbaycan qarşısında isə müəyyən mərhələlərdə İranın bölgə siyasəti Ermənistanın gücləndirilməsinə şərait yaratmaqdan ibarət olmuşdur. Çünki yuxarıda da qeyd edildiyi kimi, Ermənistan Qərbi və

Şimali İranı türklərin təsirindən qoruyan bir qalxan vəzifəsini icra edir və təbii olaraq İran da Qafqaz siyasətini öz məqsədləri və gələcəkdə qarşılaşa biləcək təhdidlər yönündə formalaşdırmışdır.

Dənizə çıxışı olmayan qapalı Ermənistanın xarici aləmə açılması üçün İranın dəstəyinə ehtiyacı vardı. Ermənistanın sabiq prezidenti Serj Sarkisyanın İranın Ermənistan üçün əhəmiyyətini açıqlayan fikirləri və Ermənistana iqtisadi baxımdan nəfəs verdirən yeganə dövlətin məhz İran olması ilə bağlı etirafları da münasibətlərə aydınlıq gətirir: *"İran Ermənistan üçün çox vacib ölkədir... Faktiki olaraq İran bizim xarici aləmlə ünsiyyət qurduğumuz iki ölkədən biridir. İranın problemlərə məruz qalması Ermənistanın nəfəs aldığı borunun getdikcə daralması deməkdir"* [Бунтман, 2011].

Düzdür, Sarkisyan burada Ermənistanın İranla qonşuluq münasibətlərinin tarixini əsrlər öncəsinə apararaq həddən artıq mübaliğələrə yol versə də, İranı Ermənistanın nəfəs aldığı boru şəklində xarakterizə etməsi tamamilə doğrudur.

İranın Birinci Qarabağ müharibəsi əsnasında Ermənistana göstərdiyi silah yardımı və onun Hind Okeanına açılan qapı olması Ermənistana Türkiyə və Azərbaycanın tətbiq etdiyi iqtisadi embarqo qarşısında davam gətirə bilməsi üçün böyük bir imkan yaratmışdır. İranın çox yaxından izlədiyi Birinci Qarabağ problemindəki mövqeyi də Ermənistanın lehinə nəticələr doğurmuşdur. Bu problem Azərbaycan ilə Ermənistan arasında İrana vasitəçilik etmə və Qafqazdakı hadisələrdə bilavasitə təsirli ola bilmə imkanına da şərait yaratmış, nəticədə isə Azərbaycan İranı nə zaman vasitəçilik etsə, bunun Azərbaycan tərəfindən torpaq itkisi ilə nəticələndiyi səbəbiylə ittiham etmişdir. Ermənistanın isə İranı vasitəçilik görüşlərinə alət edərək, hərbi manevrləri üçün vaxt qazanmasında taktika olaraq istifadə etdiyi ortaya çıxmışdır [Səfərov, 1999: 30].

İranı Ermənistana yaxınlaşdıran digər bir səbəb isə bu ölkənin İranın yeganə xristian qonşusu olmasıdır. İranın keçmiş prezidenti Məhəmməd Hatəminin *"sivilizasiyaların dialoqu"* tezisinə uyğun olaraq ölkənin Ermənistanla qurduğu hərtərəfli münasibətlər İran tərəfindən İslamın və xristianlığın nümunəvi qardaşlığı olaraq dünyaya nümayiş etdirə biləcəyi ən önəmli amil olaraq dəyərləndirilmiş və bu əlaqələrin İran fundamentalizminin mülayim görünməsinə şərait yaratması düşünülmüşdür [Gül, Ekici, 2002: 43].

Məhz belə bir prizmadan məsələyə yanaşsaq, İran özünün Ermənistan siyasətini "sivilizasiyaların dialoqu" çərçivəsində dəyərləndirmişdir. Halbuki İran Azərbaycanı İsrail və ABŞ ilə yaxın münasibətlər qurmaqda və guya İslam dininə xəyanət etməkdə təqsirləndirmişdir. Bunun əksinə olaraq, İranın özü Azərbaycan ərazilərinin 20%-dən çoxunu işğal edən, bir milyon 200 min nəfərdən çox müsəlman azərbaycanlını qaçqına çevirən, İslam dininin müqəddəs yerlərini dağıdıb təhqir edərək silah anbarlarına çevirən, məscidlərdə donuz saxlayan Ermənistanla hərtərəfli siyasi, iqtisadi, texniki, maliyyə və s. sahələrdə əməkdaşlıq edirdi. Bu məsələ İranın Ermənistanla müəyyən koordinasiyalı fəaliyyətinin olduğunun bariz nümunəsidir. İnkaredilməz həqiqətdir ki, işğal olunmuş ərazilərdə, bu torpaqların istismar olunmasında, evlərin dağıdılmasında, dəmir yol relslərinin sökülüb aparılmasında İran şirkətləri, fərdi sahibkarlar Ermənistanla əməkdaşlıq ediblər.

İran nəzərə almalı idi ki, Azərbaycan öz xarici siyasət fəaliyyətində hamılıqla qəbul olunmuş normaları əsas götürür, dövlətin xarici və daxili siyasəti dini prinsiplər üzərində qurulmur. Eyni zamanda İran bunu da anlamalıydı ki, Azərbaycan ABŞ və İsrail kimi dövlətlərin İrana qarşı siyasətlərinin həyata keçirilməsinə alət olmamış, öz kəskin reaksiyasını bildirmiş, dövlət və milli mənafeyini əsas tutmuşdur.

ABŞ və İsrail İranın nüvə reaktorlarına qarşı hücum ehtimalını əsas götürərək Azərbaycandan "hücum başlanğıc mərkəzi" kimi istifadə etməyi planlaşdırmış olsalar belə, Azərbaycan rəsmi dövlət səviyyəsində İrana yönəlik hər hansı bir hücumda Azərbaycan torpaqlarından istifadə etməyə qəti şəkildə icazə verməyəcəyini bildirərək, buna qəti şəkildə etiraz etmişdir [Kocaman, 2023].

Çünki Azərbaycan bu vəziyyətin regionda mənfi nəticələr doğura biləcəyinin həmişə fərqində olmuşdur və böyük dövlətlərin mənafeyi naminə İranla qonşuluq münasibətlərinin pozulmasına əsla tərəfdar olmamışdır. Bütün bunlara baxmayaraq, İran böyük dövlətlərin alətinə çevrilən Ermənistanla və Qarabağdakı separatist qurumla hərtərəfli münasibətlər qurmağa davam etmiş, dəstəyini əsirgəməmişdir.

Hadisələrin təhlili onu deməyə əsas verir ki, istər 44 günlük müharibə dövründə və sonrasında Cənubi Qafqaz regionunda yeni geosiyasi reallıqlar yaransa da, həqiqətləri qəbul etmək istəməyən İran vəziyyətlə barışmağa yanaşmamış, sabitliyi pozmağa çalışmışdır. Heç təsadüfi deyildir ki, İranın 30 illik işğal müddətində həm Ermənistanla, həm də separatçı qurumla əməkdaşlıq etməsi ilə bağlı, işğal altındakı ərazilərdə birgə qeyri-qanuni fəaliyyətlə məşğul olmasına dair çox sayda faktlar var. Hətta 44 günlük müharibə əsnasında da Azərbaycan hökumətinə bağlı Kütləvi İnformasiya Vasitələri (KİV) Rusiya silah-sursat və hərbi texnikasının İran üzərindən Ermənistana gətirildiyini sübut edən videogörüntülər də paylaşmışdır [APA Analytics, 2020].

Bundan başqa, Türkiyə mənbələri müharibə dövründə 300-ə yaxın PKK döyüşçüsünün də İran vasitəsilə Qarabağa köçürüldüyünə dair faktlar ortaya qoymuşdur [Middle East Monitor, 2020]. Uzun müddət idi ki, İrandan qaçaqmalçılıq yolu ilə Qarabağa, ermənilər yaşayan ərazilərə yük avtomobilləri ilə şübhəli məhsullar daşınmışdır. Bununla bağlı bir neçə dəfə Azərbaycan tərəfinin İrana mesaj göndərməsinə, internetdə, televiziyalarda videokadrların yayılmasına baxmayaraq, İran tərəfi hər dəfə bu kadrları cəfəngiyat adlandırmışdır. Ermənistan televiziyası da İrana məxsus yük maşınlarının Laçın dəhlizi vasitəsilə Xankəndinə getdiyini təsdiqləyirdi. İranın Laçın dəhlizi vasitəsilə separatçılara yük daşıdığı heç bir şübhə doğurmamışdır [Məmmədov, 2021].

Əslində İranın Ermənistana və Azərbaycana qarşı mövqeyi təəccüb doğurmamalıdır. Məlum olduğu kimi, 30 il ərzində həm Qarabağdakı separatçıların varlığında, həm də Ermənistanın təcrid vəziyyətdə qalmamasında İran xüsusi rol oynayıb. Vətən Müharibəsinin gedişində də İranın Ermənistana və Qarabağdakı separatçılara necə dəstək verdiyini faktlar təsdiq edir. Əlbəttə ki, Ermənistana və separatçılara verilən dəstək İranın ənənəvi maraqlarının tərkib hissəsi olmuşdur. Azərbaycanın işğal altında olan ərazilərindən istifadə etməklə İran Ermənistanla narko-ticarət əlaqəsi yaradırdı. Azərbaycan yeni geosiyasi reallıqlar çərçivəsində beynəlxalq narko-ticarətin yolunu bağlamış oldu. Bu isə İranı narahat etməyə bilməz. Çünki narkotik maddələrin qeyri-qanuni dövriyyəsindən gələn gəlir faktiki olaraq dünyada ən çox qazanc verən üç sahədən biridir. Bu baxımdan İranın vaxtilə işğal altındakı Azərbaycan ərazilərindən Ermənistanla birgə narkotrafik tranzit üçün faydalanması təsadüfi hesab edilə bilməz. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 15 oktyabr 2021-ci ildə Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının videokonfrans formatında keçirilən iclasında çıxışı zamanı bu reallığı xüsusilə qeyd edib: *“Azərbaycan İranla dövlət sərhədinin təqribən 30 il müddətində Ermənistanın nəzarəti altında olmuş 130 kilometrlik hissəsində nəzarəti ötən bir ildə bərpa edib və beləliklə, İrandan Azərbaycanın Cəbrayıl rayonundan keçməklə Ermənistana və daha sonra Avropaya narkotrafik marşrutunu bağlayıb. Azərbaycan-İran sərhədinin digər sahələrində bizim tutub saxladığımız heroinin həcmi əvvəlki illərin müvafiq dövrü ilə müqayisədə iki dəfə artıb. Bu, o deməkdir ki, təqribən 30 il müddətində Ermənistan İranla əlbir olaraq Azərbaycanın o vaxt işğal altındakı ərazilərindən Avropaya narkotrafik üçün istifadə edib”* [Azərbaycan Dövlət İnformasiya Agentliyi, 2021].

Bundan başqa, məlum olduğu kimi, Qarabağ dünyadan təcrid olunduğuna və inkişafı üçün heç bir perspektiv görünmədiyinə görə, o ərazilər müxtəlif çirkli pulların yuyulması üçün istifadə edilirdi. Həmin zonalar erməni silahlı qüvvələrinin nəzarətində olduğuna görə, orada böyük narkotik plantasiyaları salınmış və narkotik İran vasitəsilə Rusiya və Avropaya ötürülməklə böyük gəlir əldə edilirdi. Heç təsadüfi deyildir ki, beynəlxalq sanksiyalar altında olan İran işğal dövründə həmin zonalara beynəlxalq nəzarət olmadığından Qarabağdakı çirkli pulların yuyulması üçün laundromat mexanizmi də qurmuşdu. İrandan Qarabağa gətirilən çirkli pullar burada iranlılar tərəfindən qurulan banklar vasitəsilə Ermənistanda yenə də iranlıların qurduğu banklara transfer edilir və bu şəkildə yuyulurdu. Şübhəsiz ki, bu pullardan digər məqsədlərlə birlikdə terrorçu təşkilatların maliyyələşdirilməsi üçün də istifadə olunurdu. Əlbəttə ki, bu cür əməliyyatlar İranın işğal dövründə Azərbaycanın işğal edilmiş torpaqlarında həyata keçirdiyi qanunsuzluqların sadəcə kiçik bir hissəsidir. Müharibənin məğlub tərəfi kimi Ermənistan və bununla bütün niyyətləri puça çıxan İran bu platformadan məhrum oldular.

Rəsmi Tehranın mövcud geosiyasi reallıqla barışmaq istəməməsinin əsas səbəblərindən biri də laundromat mexanizminin əldən çıxmasıdır [İsmayılov, 2021; APA Analytics, 2021].

Digər tərəfdən, rəsmi Tehran qeyri-qanuni daşımalarla Ermənistana, həm də Azərbaycanın qanuni ərazisi olan Qarabağa rus sülhməramlılarının gözü qarşısında silah və hərbi sursat təyinatlı mallar gətirir və ya bunları Avropadan alıb İrana ötürürdü. Bu strateji yolu da Azərbaycan öz nəzarətinə götürdü. Azərbaycanın Gorus-Qafan yolunun sahibi kimi bu təyinatlı yükləri yoxlamağa tam haqqı var idi və bunu həyata keçirdikdən sonra Ermənistan-İran münasibətlərində Azərbaycana yönəlik istiqamətlərin də dəyişməsi müşahidə olundu.

Əlbəttə ki, İran Azərbaycana qarşı münasibətdə onu müxtəlif məsələlərdə, əsas olaraq da İsrail ilə münasibətlər qurmaqda və əməkdaşlıqda ittiham edir. Əvvəla, hansısa ölkə ilə əməkdaşlıq etmək Azərbaycanın öz suveren hüququdur. İkincisi, yuxarıda da qeyd olunduğu kimi, Azərbaycan öz ərazisindən heç bir zaman qonşu ölkələrə qarşı hər hansı bir dövlətin istifadə etməsinə şərait yaratmayıb. Eyni zamanda ABŞ-ın, İsrailin və ya hansısa gücün Azərbaycan üzərindən İrana hərbi müdaxiləsinin mümkünlüyü məsələsinə Azərbaycan rəhbərliyi öz xüsusi mövqeyini daim nümayiş etdirmiş və qəti etirazını bildirmişdir. Azərbaycan bir neçə səbəbdən (bunlar arasında Naxçıvan Muxtar Respublikasına İran ərazisindən keçən qaz kəmərinə ziyan dəyməsi, İran ərazisində yaşayan on milyonlarla soydaşımızın görə biləcəyi zərər, şimala doğru kütləvi köç təhlükəsi, qonşularla mövcud münasibətlər sisteminin məhv olmasına imkan verməmək arzusu və s. var) İrana mümkün hərbi əməliyyatlara qarşı çıxdığını və bu cür əməliyyatlar üçün ərazilərindən istifadə olunmasına qəti şəkildə imkan verməyəcəyini bəyan etmişdir [Heydərova, 2013]. Burada haqlı olaraq belə bir sual ortaya çıxır: ***Madam, İran ABŞ və İsraili özünə bu qədər qatı düşmən olaraq görür, bəs Ermənistana qarşı açıq mövqeyini niyə obyektiv şəkildə ortaya qoymur?*** Halbuki Ermənistanda İranın özünə bir nömrəli düşmən hesab etdiyi ABŞ-ın ən böyük səfirliyi fəaliyyət göstərir. Postsovet ölkələri içərisində ABŞ-nin ən böyük səfirlik heyəti yalnız Ermənistandadır. İranı şər dövlətlər siyahısına salan dövlət də məhz ABŞ-dir. İran bu reallığı nəzərə alaraq özünə bu sualı verməli və Azərbaycana qarşı irəli sürdüyü ittihamları diqqətlə nəzərdən keçirməlidir: ***necə olur ki, ABŞ-nin güclü təsiri altında olan Ermənistanla İranın bu qədər yaxın münasibətləri formalaşıb? Ortada belə bir fakt varkən İran Azərbaycanı ittiham edə bilərmi?***

Digər tərəfdən, məlumdur ki, Azərbaycan tərəfi dövlət sərhədinin demarkasiyası kimi vacib məsələlərə həll yolları tapmağa çalışır. Bu proses bölgənin gələcək təhlükəsizliyi və sabitliyi üçün əhəmiyyətlidir. Bu mənada Azərbaycan beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünü bərpa etmək istəyir. Heç təsadüfi deyildir ki, noyabr müqaviləsindən sonra Azərbaycan Sovet xəritələri və GPS-dən (Global Positioning System – Qlobal Mövqetəyinetmə Sistemi) istifadə edərək demarkasiya prosesinə başlayıb. Azərbaycana qarşı təbliğat aparmaq və demarkasiya, delimitasiya prosesinin başlamasının qarşısını almaq yalnız sülh prosesinə zərər verə bilər. Bölgədə sabitliyin olmasından daim narahatlıq duyan İran sərhədlərin dəyişməməsinin tərəfdarı kimi çıxış edir və bu məsələdə Ermənistana dəstək verir. Sual olunur: ***İran Rusiya ilə eyni blokda yer alan Ermənistan sərhədlərinin qorunması ilə bağlı KTMT-nin öhdəliyini öz üzərinəmi götürmək istəyir?***

Bundan başqa, İran Zəngəzur dəhlizi məsələsində əks mövqe nümayiş etdirir. Halbuki dəhliz ilə bağlı məsələyə Ermənistan özü 10 noyabr 2020-ci il tarixli üçtərəfli razılaşma ilə, eyni zamanda Vaşinqtonda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, ABŞ Prezidenti Donald Tramp və Ermənistanın Baş naziri Nikol Paşinyanın iştirakı ilə keçirilən 8 avqust 2025-ci il tarixli üçtərəfli görüşdə əldə edilən tarixi anlaşma ilə razılıq verib. Şübhəsiz ki, İranın duyduğu ən böyük narahatlıq və qorxu Cənubi Azərbaycan məsələsidir. Türkiyə ilə Azərbaycan arasındakı strateji müttəfiqlik səviyyəsində əlaqələrin möhkəmlənməsi, ümumilikdə türk dünyası arasında əməkdaşlıq və inteqrasiyanın qurulması, dolayısı ilə türk birliyi amili İranın bölgədə geosiyasi reallıqlarla uzlaşa bilməməsinin əsas amillərindəndir. İran bu geosiyasi reallığı nəinki qəbul etməyə yanaşmır, əksinə mane olmağa

və sabitliyi pozmağa çalışır. Türk birliyi amili İran baxımından təhdid olaraq alqılanmaqdadır. Məhz buna görə də İran mövcud geosiyasi reallıqları həzm edə bilmir.

İranın müxtəlif adlar altında Azərbaycanla sərhəddə hərbi təlimlər keçməsi də İranın əsl mövqeyini ortaya qoymuşdur [BBC, 2021]. 28 fevral 2026-cı ildən etibarən ABŞ-İsrail koalisiyası ilə müharibə vəziyyətində olan İranın fevralın 5-də Azərbaycanın ayrılmaz parçası olan Naxçıvan Muxtar Respublikasının ərazisinə qarşı dron zərbələri endirməsi bu mövqenin bir daha dəyişməz olduğundan xəbər verir. Halbuki həmin tarixdə İran səfirliyinin Livanda qalmış əməkdaşlarının təxliyəsinə köməklik göstərilməsi ilə bağlı İranın Xarici İşlər nazirinin müavininin xahişinə cavab olaraq Azərbaycan tərəfi öz dəstəyini göstərdi. Lakin yardım göstərilməsinə baxmayaraq, İran tərəfindən Naxçıvana pilotsuz uçuş aparatları ilə zərbə endirildi və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Təhlükəsizlik Şurasının iclasında bu addımın qəbuledilməz olduğunu bildirərək sərt reaksiya verdi və bu yardımlar müqabilində Naxçıvana edilən hücumu terror aktı kimi qiymətləndirdi və çirkin əməl adlandırdı.

Qeyd etmək lazımdır ki, türk tarixinə ən əlamətdar gün kimi düşən **15 iyun 2021**-ci il tarixində Şuşa şəhərində Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında bəyannamənin imzalanması Azərbaycanın əsla yalnız olmadığını ortaya qoyur. **"Şuşa bəyannaməsi"**ndə müştərək maraqlara əsaslanan regional və beynəlxalq strateji mövzulardakı fəaliyyətlərin qarşılıqlı koordinasiyasının vacibliyi vurğulanmış, tərəflərin bütün önəmli məsələlərdə beynəlxalq və regional təşkilatlar çərçivəsində müxtəlif platformalarda bir-birilərini tam dəstəkləyəcəklərinə dair niyyət bəyanı ilə bir millət – iki dövlət ruhu həmin tarixi sənəddə öz əksini tapmışdır. Bu bəyannamənin əsas mahiyyəti ondan ibarətdir ki, Türkiyə və Azərbaycan öz aralarında ilk dəfə olaraq adında "müttəfiqlik" ifadəsinin olduğu bir sənəd imzalayıblar. Vaxtilə imzalanan anlaşmalar və atılan addımlarla strateji ortaqlıq səviyyəsinə yüksələn əlaqələr Şuşa bəyannaməsi ilə bu dəfə müttəfiqlik səviyyəsinə qalxmış oldu. Qeyd edilməsi son dərəcə vacib olan məsələ budur ki, müttəfiqliyin dar çərçivədə xarakterizə olunmayıb, daha geniş mənada bütün regionu əhatə etməsi, xüsusilə türk dünyası ifadəsinin vurğulanması bu bəyannamənin gələcəyə işıq tutan olduqca strateji bir sənəd olduğunu nümayiş etdirir [Aslanlı, 2021]. Bu baxımdan sözügedən bəyannamə bölgədə sabitliyi pozmağa çalışan dövlətlərə, o cümlədən İrana qarşı regional sülhün qorunmasını özündə ehtiva edən mesaj xarakteri daşıyır.

## NƏTİCƏ

İran İslam Respublikasının siyasi ideologiyasında din və məzhəb amili yalnız daxili legitimlik aləti kimi deyil, həm də xarici siyasətin formalaşdırılmasında mühüm amil kimi çıxış edir. Bu amillərin ölkənin xarici siyasətində, xüsusilə Yaxın Şərq və Cənubi Qafqaz regionlarında ciddi manipulyativ təsirləri xüsusilə qeyd edilməlidir. Məqalədə aparılan təhlillər göstərir ki, məzhəbçilik elementi İranın regional davranış modelində selektiv və rıçaq xarakteri daşıyır, yəni o, konkret geosiyasi maraqların təmin olunmasına xidmət edən ideoloji vasitə kimi istifadə olunur. Məzhəbçilik rəsmi Tehran tərəfindən daha çox geosiyasi maraqların təmin olunmasına xidmət edən başlıca vasitə kimi istifadə edilir. Qeyd etmək lazımdır ki, İranın bu məzhəbçiliyi yalnız siyasi alət deyil, həmçinin dərin tarixi köklərə malikdir. Bu baxımdan məqalədə məzhəbsəl qarşıdurmaların və ideoloji toqquşmaların genezisi Sasani imperiyasının süqutu dövrünə qədər izlənilir və ərəb-fars münasibətlərində formalaşmış tarixi gərginliyin günümüzdəki münasibətlərə təsiri qeyd olunur. Bu baxımdan, məzhəbçiliyin pərdəarxası səbəblərini tarixi-siyasi faktorlarda axtarmaq lazım gəlir. Qeyd etmək lazımdır ki, İranın Azərbaycanla münasibətlərində də strateji ziddiyyətlər və geosiyasi toqquşmalar mövcuddur. İranın uzun illər ərzində Ermənistanla müxtəlif səviyyələrdə yaxın münasibətlər qurması, regiondakı status-kvonun saxlanmasına yönəlik mövqeyi, eləcə də qeyri-rəsmi aktorlara münasibətdə nümayiş etdirdiyi selektiv yanaşma bu siyasətin praktik təzahürləri kimi qiymətləndirilə bilər. Eyni zamanda, Azərbay-

canın müstəqil və çoxvektorlu xarici siyasəti, o cümlədən İsraillə əməkdaşlığı fonunda Tehranın irəli sürdüyü ittihamlar, habelə Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsi nəticəsində formalaşmış yeni geosiyasi reallıqlara münasibətdə sərgilənən ehtiyatlı və bəzən neqativ yanaşma İranın regional güc balansına dair həssaslığını üzə çıxarır. Xüsusilə Zəngəzur dəhlizi məsələsinin İran tərəfindən "qırmızı xətt" kimi təqdim edilməsi bu həssaslığın geosiyasi prioritetlər səviyyəsində nə dərəcədə əhəmiyyət kəsb etdiyini nümayiş etdirir. Həmçinin, İranın səmimi qonşuluq mövqeyindən çıxış etməməsi əslində praktik siyasətlə uzlaşmır, bu da Tehran-Bakı münasibətlərində etimad mühitinin formalaşmasını çətinləşdirən əsas amillərdən biri kimi çıxış edir. Bu ziddiyyətlər İranın ideoloji diskursu ilə real geosiyasi davranışı arasında mövcud olan uyğunsuzluğu aydın şəkildə ortaya qoyur.

Nəticə etibarilə, İran-Azərbaycan münasibətlərində müşahidə olunan strateji ziddiyyətlər təkcə ideoloji fərqliliklərlə izah oluna bilməz. Burada əsas rol oynayan faktorlar geosiyasi maraqların toqquşması, regional güc balansı və təhlükəsizlik prioritetləridir. Bu baxımdan, gələcək münasibətlərin inkişafı qarşılıqlı etimadın gücləndirilməsi, praqmatik əməkdaşlıq mexanizmlərinin genişləndirilməsi və ideoloji ritorikanın real siyasətlə daha uyğunlaşdırılmasından asılı olacaqdır.

## ƏDƏBİYYAT


Armaoğlu, F. (1991). *20. yüzyıl siyasi tarihi (1914-1980)* (2 ciltte, 1-ci cilt). Türkiye İş Bankası Kültür yayınları.

Bardakçı C. (1970). *Alevilik, bektaşilik, ahilik*. İş Kültür.

Ekinci A.C. (2009). Türk dış politikası bağlamında Türkiye-İran ilişkilerinin önemi. *Türk Dış Politikası. Uluslararası III. Türk dış poltikası sempozyumu tebliğleri* (s. 231-245). Uluslararası Stratejik Araştırmalar Kurumu (USAK) yayınları.

Gül N., Ekici G. (2002). Ortak tehdit algılamaları ve stratejik ittifaklığa doğru ilerleyen İran-Ermenistan ilişkileri. *Stratejik Analiz, Aylık Uluslararası İlişkiler ve Stratejik Araştırmalar Dergisi*, 2, 22, 37-43.

Kaya V. (1998). *Toplumsal değişme açısından karizmanın şiddeti: Atatürk, Hitler, Humeyni*. Sis yyıncılık.

Kevserani V. (1992). *Osmanlı ve Safevilerde din-devlet ilişkiler*i. Denge.

Qasımov M. (1998). *Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri)*. Mütərcim nəşriyyatı.

Özdağ M. (1998). *Türk aleviliğinin yükselişi*. Türk Dünyası Araştırmaları Vakfı.

Səfərov P.Ş. (1999). *90-cı illərdə Azərbaycanın beynəlxalq vəziyyəti və xarici siyasəti:* Metodik vəsait. N.Tusi ad. Azərbaycan Dövlət Pedaqoji Universiteti.

Şıxəliyev E. (2020). *Yeni dünya nizamı və onun mahiyyəti*. Əcəmi.

Şıhaliyev E. (2004). *Kafkasya jeopolitiğinde Rusya, İran, Türkiye rekabetleri ve ermeni faktörü.* Naturel yayıncılık.

Şıhaliyev E. (2023). Iran's Armenia and Azerbaijan policy: geopolitical realities and comparative analysis. *Genel Türk Tarihi Araştırmaları Dergisi*, TC'nin 100. yılı özel sayı, 329-340.

*Türk ansiklopedisi* (28-ci cilt). (1980). MEB.

Heydərova, X. (2013, 1 Noyabr). *ABŞ və İranın Cənubi Qafqazda geosiyasi maraqları və Azərbaycan*. http://huquq.org.az/az/publication/geopolitical-interests-of-the-u-s-and-iran-in-the-south-caucasus-and-azerbaijan/

Aslanlı, A. (2021, 21 Hazıran). *Şuşa beyannamesi bölgesel barış ve işbirliğinin teminatı*. https://www.aa.com.tr/tr/analiz/susa-beyannamesi-bolgesel-baris-ve-is-birliginin-teminati/2280430

İsmayılov, S. (2021, 15 Oktyabr). *Ermənistanın arxasında gizlənən İran*. https://report.az/analitika/iranin-dostlugu-hara-qederdir-serh/

Azərbaycan Dövlət İnformasiya Agentliyi. (2021, 15 Oktyabr). *İlham Əliyevin MDB Dövlət Başçıları Şurasının iclasında çıxışının mətni.* https://oxu.az/politics/537742

BBC. (2021, 01 Oktyabr). *İran Azərbaycanla sərhəddə hərbi təlimlərə başlayıb*. https://www.bbc.com/azeri/azerbaijan-58732755

APA Analytics. (2021, 11 Oktyabr). *İranın Azərbaycana qarşı aqressiyasının əsl səbəbi: Narkotrafik Tehranın əlindən çıxır*. https://apa.az/az/xeber/siyasi/iranin-azerbaycana-qarsi-aqressiyasinin-esl-sebebi-narkotrafik-tehranin-elinden-cixir-tehlil-665324

Məmmədov, Z. (2021, 12 Avqust). *İran nə istəyir?* https://apa.az/az/xeber/siyasi/iran-ne-isteyir-tehlil-656532

Kocaman, Ö. (2023, 20 Oktyabr). *ABD ve İsrail Azerbaycan'dan yardımmı umuyorlar?* http://www.turksam.org/tr/yazilar.asp?kat=5&yazi=788

Middle East Monitor. (2020, 30 September). *Turkey: Armenia transports hundreds of PKK militants to fight Azerbaijan*. https://www.middleeastmonitor.com/20200930-armenia-transports-hundreds-of-pkk-militants-to-fight-azerbaijan/

APA Analytics. (2020, 29 september). *Video footages spread regarding weapons and military equipment transport form Iran to Armenia.* https://apa.az/en/xeber/nagorno_garabagh/Video-footages-spread-regarding-weapons-and-military-equipment-transport-from-Iran-to-Armenia-colorredNEW-FACTScolor-colorredVIDEOcolor-331624

Бунтман С. (2011, 27 Yanvar). *Эхо Москвы. Серж Саргсян, президент Армении.* http://www.echo.msk.ru/programs/beseda/744902-echo.phtml

*(Akademik İsmayıl Hacıyev tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 19.05.2026**
**Son variant 02.06.2026**